2026-cı il üzrə təsərrüfat subyektlərinin fəaliyyətində rəqabəti məhdudlaşdıran sazişlər, bazarda hökmran mövqe və nisbətən yüksək bazar gücü ilə bağlı rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə dövlət nəzarətinin təşkil edilməsi barədə

MƏLUMAT

№	Haqqında araşdırma aparılan və ya iş qaldırılan təsərrüfat subyektinin adı	Araşdırmanın və ya iş qaldırmanın predmeti	Qanunvericilik əsası	Dövlət nəzarət tədbirinin növü	Araşdırmanın və ya iş qaldırmanın icra vəziyyəti	Araşdırma və ya iş qaldırmanın nəticəsi
1	"PDD Holdings" şirkəti	"PDD Holdings" şirkətinin "Temu" elektron ticarət platforması vasitəsilə rəqabəti məhdudlaşdıran qiymət siyasəti həyata keçirməklə hökmran mövqedən sui-istifadə etməsi ilə əlaqədar rəqabət qanunvericiliyinin pozulması əlamətləri	Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 16.2.1-ci, 16.2.7-ci və 16.2.8-ci maddələrinin tələblərinin pozulması əlamətləri	Araşdırma	Araşdırma yekunlaşıb	Rəqabət qanunvericiliyinin pozulması halları və əlamətləri müəyyən edildiyi üçün rəqabət qanunvericiliyinin pozulması haqqında iş qaldırılması məsələsinə baxılması üçün rəqabət komissiyasının yaradılması barədə qərar qəbul edilib
				İş qaldırma	İşə baxılması davam edir	
2	"Bolt Services AZ" MMC	"Bolt Services AZ" MMC tərəfindən bəzi regionlarda rəqabəti məhdudlaşdıran qiymət siyasəti həyata keçirməklə hökmran mövqedən sui-istifadə etməsi ilə əlaqədar rəqabət qanunvericiliyinin pozulması əlamətləri	Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 16.2.1-ci maddəsinin tələbinin pozulması əlamətləri	Araşdırma	Araşdırma davam edir	

Araşdırma: *Rəqabət Məcəlləsinin 43-cü maddəsinə əsasən rəqabət qanunvericiliyinin pozulmasına dair müraciətlər, mediada yayımlanan məlumatlar, monitorinq və təhlillər əsasında rəqabət orqanı tərəfindən araşdırmalara başlanılır. Aparılmış araşdırmanın nəticəsində qanunvericiliyin pozulması əlamətləri müəyyən edildikdə rəqabət orqanı təsərrüfat subyekti barəsində iş qaldırılması haqqında qərar verir. Qanunvericiliyin pozulması əlamətləri müəyyən edilmədikdə isə araşdırmaya xitam verilir və icraat dayandırılır.*

İş qaldırma: *Rəqabət Məcəlləsinin 61.1-ci maddəsinə əsasən rəqabət orqanı tərəfindən aparılan araşdırmalar və yoxlamalar zamanı bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinin pozulması əlamətlərinin müəyyən edilməsi həmin subyektlər barəsində iş qaldırılması üçün əsasdır.*